Şirvan Aşıq məktəbinin böyük simalarından olan Aşıq Yanvar da dünyasını dəyişdi. Yetmiş altı yaşı var idi. İsmayıllı rayonunun Tircan kəndindən idi. Ustadı tarixi Şirvan bölgəsində tanınmış Aşıq Şamil olmuşdu. Şirvan aşıq məktəbinin tipik nümayəndəsi idi. Rəvan bir dildə dastan danışır, gözəl oxuyurdu. Şirvan aşıq məktəbinə aid havaları gözəl bilirdi və ustalıqla ifa edirdi. Yaxşı yaddaşı var idi. Klassik Azərbaycan aşıq şeirini və Şirvan aşıq mühitinə aid dastanları yaxşı bilirdi. Ustad görmüş aşıq kimi Şirvan aşıq məktəbinin ənənələrini yaxşı bilən və ifa zamanı onlara əməl edən Aşıq Yanvar bu məktəbin böyük nümayəndələrinin sonuncularından idi.

Vaxt gəldi, zaman yetişdi, insan oğlu öz dünyasını dəyişir. Ancaq ustad Yanvarın vəfatı adi bir ölüm hadisəsi deyil. Ustad Yanvar Şirvan aşıq mühitinin sonuncu nümayəndələrindəndir. Aşıq sənətinin canı dastan söyləyiciliyidir. Azərbaycanın bütün bölgələrində olduğu kimi, Şirvanda da dastan ifaçılığı sona yetir. Bu hadisənin əsas səbəbi auditoriyadır. Başqa sözlə, yeni nəsil dastana qulaq asmaq istəmir. Bu səbəbdən gənclər "ustada qulluq edib" sənəti öyrənməkdənsə üç-beş hava öyrənib toylara gedirlər. Nə onlardan dastan istəyən var, nə də öyrənən. Bu şəkildə "ustad-şəyird" zinciri qırılır və bu səbəbdən də ənənə itir. Xalqın yüz illər boyu yaratdığı sənət gözümüzün qarşısında yoxa çəkilir. Azərbaycan xalq həyatının bir parçası ömrünü başa vurur. Ənənənin ölməsi hər ifadə yenidən canlanan dastanın ölməsi deməkdir. Dastanın ölməsi epik ifaçılıq sənətinin bütün atributlarının hamısı deyilsə, böyük bir hissəsinin – ifanın qaydalarının, müşayiətçiliyin (aşıq xanəndəliyinin, qavalçılığın, balabançılığın, qoşa nağaraçılığın) – havaların, ustad-şəyird münasibəti ilə bağlı qaydaların ölməsi deməkdir. Aşıq Yanvarın dəyəri onda idi ki, o bu ənənəni yaşayan və yaşadan lap sonunculardandır. Ürəyimizi ağrıdan odur ki, biz bu ustad sənətkarla kifayət qədər təmasda olub onun bildiklərini kağıza köçürmədik. Təskinliyimizsə ondan ibarətdir ki, biz ustad Yanvarın və onun yeganə şəyirdi Aşıq Elmanın birgə ifası ilə bir neçə dastan lentə köçürüb



# USTAD ÖMRÜ, USTAD ÖLÜMÜ

gələcək nəsillər üçün saxlaya bildik. Ancaq bu dastanlar aşığın sinəsində saxladığı və özü ilə haqqın dərgahına apardığı xəzinənin cüzi bir hissəsi idi.

Ustad Yanvarla vəfatından bir ay öncə görüşmüşdük; vücudu zəifləmişdi, səsi güclə eşidilirdi. Buna baxmayaraq, bizimlə beş-altı saat söhbət etdi. Şəyirdi Aşıq Elman da bizimlə idi.

Söhbət əsnasında Xəstə Qasımdan bir şeir dedi. Şəyirdi Elman Ustada bildirdi ki, o Xəstə Qasımın şeirini birinci dəfə eşidir. Ustad zəif şəkildə gülümsünüb "hər şeyi deməzlər" cavabını verdi. Ustad Yanvarın nələri özü ilə apardığını təsəvvür etmək üçün bu misal kifayət edər.

Ustad Yanvar Şirvan aşıq məktəbinin ən dinamik, ən hərəkətli, ən çılğın nümayəndəsi idi. Məlum olduğu kimi, Şirvan aşıq məktəbi Azərbaycan aşıq sənəti içərisində özünün xüsusi ənənələri ilə seçilir. Bu məktəb dastan fonduna, havalara, havaları müşayiət edən çalğı alətləri və ifa tərzinə görə fərqli xüsusiyyətlərə malikdir. Şivan aşıqlarının bildiyi və söylədiyi dastanların bir qismi yalnız bu bölgə aşıqları arasında mövcuddur. Bir qismi isə ümumi dastan fondumuzda mövcuddur. Ancaq bu dastanlar Şirvan aşıq məktəbində dərin versiyaya məruz qalmışdır. Bu o deməkdir ki, Şirvan aşıq məktəbi ümumi dastan fondumuza aid dastanların Şirvan versiyasını yaratmışdır. Başqa sözlə, mövcud dastanları Şirvan aşıq məktəbinin ənənələrinə uyğunlaşdırmışdır. Şirvan aşıq mühitində mövcud olan havalardan bir qismi yalnız bu mühitə məxsusdur: peşrovlar, şəşəngi, şikəstələr, qara qafiyə, ifa zamanı istifadə olunan muğamlar Qərb və Güney Azərbaycanda oxunan havalar Şirvan aşıqlarının ifasında başqa rəng alır. İfa sazın, qoşa nağaranın, qavalın, balabanın müşayiəti ilə gerçəkləşir. İfa zamanı aşığın yanında xanəndə köməkçi olur. Hər balabançı, hər xanəndə, hər qoşa nağara çalan aşığı müşayiət edə bilməz. Bunun üçün təcrübə və dastan ifaçılığı sənətini bilmək lazımdır. Ansambl aşığın nə istədiyini anında anlamalıdır. İfanın sadaladığımız komponentlərinin sayəsində Şirvan aşıqlarının söylədiyi dastanlar tamamilə fərqli səslənir. Ustad Yanvardan "Koroğlu" dastanının bir qolunu yazıya aldıq. Özünün dediyinə görə o, bu qolu kitabdan öyrənib. Ancaq şəyirdi Elmanla birgə Ustad dastanı Şirvan aşıqlarına məxsus havalarla oxudu və heyrətamiz bir ifa alındı. Bu havalarla oxunan dastandan aldığımız təəssürat tamamilə başqa idi. Qol əməlli-başlı şirvanlaşdırılmışdı. Qeyd etmək istərdik ki, bu iş heç də asan deyil. Dastan şeirlərinin Şirvan aşıq məktəbinin təklif etdiyi havalardan hansı ilə oxunmasını tapmaq, müəyyən etmək gərgin yaradıcılıq işi tələb edir. Ustaddan deyil, kitabdan götürülmüş dastanın başqa bir məktəbin ənənələrinə uyğun şəkildə təqdimi dastan ifaçılığının tarixində görünməmiş hadisədir və bu hadisə dastanın yenidən canlanması deməkdir. Ancaq Şirvan aşığının sənətinin böyüklüyünü deyilənlərlə təsəvvür etmək mümkün deyil. Onların sənətinin tutumunu və səhnələrdə görmək, seyr etməklə də anlamaq olmaz. Onun yerini, sənətinin çəkisini və sənətin nüfuzunu el məclisində xüsusən də toyda görmək mümkündür. Şirvan aşığının toylarda dastan ifa etməsi sözün həqiqi mənasında tamaşadı, şoudur. Aşıq dastan ifa edərkən bütün müşayiətçilərin gözü, fikri aşıqda olur və onlar aşığın hər işarəsinə yubanmadan hay verir.

*(Davamı 15-ci səhifədə)*

# USTAD ÖMRÜ, USTAD ÖLÜMÜ

*(Əvvəli 14-cü səhifədə)*

İfanın musiqi yükü daha çox müşayiətin üstündə olduğundan aşıq bütün gücünü dastanın ifasına və məclisin diqqətinin ona cəmlənməsinə verir. Bunun üçün hər havaya uyğun etdiyi rəqslər, sazla etdiyi gözlənilməz hərəkətlər kifayət edir ki, məclis gözünü aşıqdan ayıra bilməsin. Həqiqətən də aşığın ifası zamanı ondan göz ayırmaq mümkün deyil. Dastan ifaçılığı sənətini bu hala gətirmək üçün azman sənətkarın böyük zəhmətini görməmək mümkün deyil. Bu işdə ustad Yanvarın zəhmətini görməmək olmaz.

Şirvanın əksər aşıqları kimi ustad Yanvar da təmkinli və ağır adam idi. Şəyirdi Elman deyir ki, mən Ustadın səsini yuxarı qaldırdığını, əsəbi danışdığını görməmişəm. Ancaq bu ağır adamın dastanı ifası zamanı çılğın hərəkətləri heyrət doğururdu. Arıq və çəlimsiz olması ona daha dinamik olmağa imkan verirdi. Di gəl, gözünü aşıqdan ayır görüm, necə ayırırsan? Aşıq Yanvar şəksiz-şübhəsiz Şirvan məktəbinin Mirzə Bilaldan bu tərəfə adı çəkilən Abbas, Şakir, Xanış, Bəylər, Məmmədağa, Xanmusa, Şərbət və s. kimi böyük ustadlar içərisində xüsusi yer tutur. O, öz sənəti ilə bir dəfəlik Azərbaycan aşıq yaradıcılığının tarixinə həkk olunub. Aşıq Yanvar özünə-sözünə, abrına-həyasına hörmət edən adam idi. O, kimsəyə yarınmayıb, kimsənin qapısında dayanmayıb. Belə adamların haqqında deyirlər: kişi kimi gəldi, kişi kimi də getdi. Onun ən böyük titulu da elə bu idi. Qəbrin nurla dolsun Ustad! Yerin cənnət olsun.

***Əfzələddin SSSGSSR,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***